# Yaradıcı potensial anlayışı

**Həcər Nəcəf qızı Paşayeva**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** hacarpasha@gmail.com

**Rəyçilər:** psixol.ü..f.d., dos. U.M. Qəzvini,
psixol.ü.f.d. dos. C.Q. Alıyev

**Açar sözlər:** yaradıcılıq, kreativlik, düşüncə, potensial, zəka, mərhələ, inkişaf
**Ключевые слова:** творчество, креативность, мышление, потенциал, интеллект, этап, развитие
**Key words:** creation, creativity, thinking, potential, intelligence, stage, development

Q.Uolles (1926) yaradıcılıq xüsusiyyətini istifadə edərək yeni bir şeyin ortaya qoyulması prosesini 4 əsas mərhələdən ibarət olduğunu qeyd etmişdir. Bu mərhələlər hazırlıq mərhələsi, inkubasiya mərhələsi, ilham mərhələsi və doğrulama mərhələsi olaraq sıralana bilər.

Hazırlıq mərhələsi, bir problemə fərqində olaraq, sistematik, məntiqi yaxınlaşmağı əhatə edir. Problem, ehtiyac, ya da gerçəkləşdirilməsini istədiyimiz şeyləri müəyyənləşdirir. Həll yolu ya da faydalı şeylər üçün məlumatlar toplanar və bunlar həllin etibarlılığı, meyarların istifadə aktuallığına əsasən qeyd olunur. İnkubasiya mərhələsi hazırlıq mərhələsinin ardınca gəlir. Bu mərhələdə şüur nəzarəti olmadığından yeni sintezlər və orijinal bəzi fikirlər orataya çıxar. Problemdən çıxaraq geriyə qayıdılar, problem zehn incələnməsinə və təhlilinə buraxılar. İlham mərhələsində fikirlər yaradıcılığa bir bünövrə yaratmaq üçün zehində yaranar. Bu fikirlər nəticə ya da məhsulun parçaları ola biləcəyi kimi nəticənin özüdə ola bilər. Bu mərhələ çox hallarda ani bir zaman çərçivəsini əhatə edir, bir neçə dəqiqə və ya bir neçə saat davam edə bilər. Arximedin hekayəsini bura aid edə bilərik. Doğrulama mərhələsi şüurlu və rasional bir mərhələdir. Daha əvvəl tapılan yaradıcı şeylər təkrar gözdən keçirilərək doğruluğu yoxlanılır. Bu prosesin nəticəsində yaradıcı məhsullar ortaya qoyula bilər. Bu dörd mərhələdən uğurlu bir şəkildə istifadə edən fərdlər, hər an yeni bir məhsul, ya da üsul orataya qoya bilərlər. Bu da özlərinin və cəmiyyətlərinin uğurlu bir həyat yaşamalarına səbəb olur. Yaradıcı düşünmənin və yaradıcılıq potensialının inkişafı fərd üçün son dərəcədə önəmlidir. Fərdlər içində olduqları bir problemdən qurtulmaq üçün yeni bir çıxış yolu istehsal etməyə ehtiyac duyduqda, çıxış yolunu ancaq yaradıcı bir şəkildə fikirləşərək tapa bilərlər. Yaradıcı bir şəkildə düşünmək üçün bütün fərdlərdə var olan bu fikirləşmə metodunun inkişafının təhsillə dəstəklənməsi gərəklidir. Müasir təhsil fəlsəfələrinin cəmiyyətlər tərəfindən qəbul edilməsinin bir nəticəsi olaraq təhsilin məqsədlərində də dəyişikliklər olduğunu görə bilərik. Təhsilin bir-biri ilə yaxından əlaqəli iki məqsədi; fərdlərin daha yaradıcı hala gətirərək cəmiyyətin fayda vermək gücünü artırmaq, hər şagirdə və ya tələbəyə potensialını ən yüksək səviyyədə inkişaf etdirməsinə kömək etmək şəklində yaranmışdır (5, 6).

Bəs ümumiyyətlə yaradıcı düşüncə nədir? Bu suala cavab tapmağa çalışaq. Mütəxəssislərin 80% yaradıcı düşünmə anlayışını "yüksək düşüncə qabiliyyəti" olaraq qiymətləndirirlər. Eyni şəkildə bu istiqamətdə fikirlər irəli sürən insanların bir çoxu yaradıcılığın anadangəlmə və hər kəsdə olan bir qabiliyyət olduğuna inanırlar. Bununla bağlı aşağıda bəzi fikirləri qeyd edə bilərik;

"Yaradıcı düşüncə, təbii ki, yüksək səviyyədə bir düşüncə bacarığıdır. Ən mühüm olan

amillərdən biridir. Çox insanda bəlkə də vardır. Amma bunu istifadə etmək gərəklidir. O, istifadə olunduğu zaman çox yaxşı nəticələr ortaya çıxa bilər. Toplum içərisində ixtiralar ya da əhəmiyyətli sahələrdəki yeniliklər həmişə yaradıcı düşüncə növləri nəticəsində ortaya çıxır"

"Yaradıcı düşüncə üstün düşünmə bacarığıdır. Hər bir fərddə var, ancaq mən bunu adətən açıqlayıram. Bir göydələn fikirləşin. Bu göydələndə hər fərdin pilləkənlə çıxa biləcəyi bir sərhəd vardır. Bacarıqlarına görə bəziləri üç, bəziləri beş, bəziləri isə iyirmi qat belə çıxa bilərlər. Yaradıcı düşüncə də bu şəkildə hər kəsdə bir az vardır. Amma bəzilərininki üç qatlıq, bəzilərininki beş qatlıqdır. Bəzilərininki isə əlli qata qədər çıxa bilinəcək şəkildədir" (3, 23).

"Yaradıcı düşüncə üstün bir düşüncə qabiliyyətidir. Çünki sıradan olmağı, fərqliliyi, estetik yəni gözəl olanı tutmaq hər kəsin bacara biləcəyi şey deyildir"

Bəziləri yaradıcılığı "fərqli düşünmə" olaraq ifadə etmişlər. Bu fikirləri irəli sürənlər yaradıcılığı fərqli düşünmə, fərqli məhsul ortaya çıxarma, fərqli həll yolları ortaya çıxarma, fərqli baxış açısından hadisələrə baxa bilmək kimi təsvir edirlər (2, 45).

Yaradıcılıq potensialına təsir edən bir sıra faktorlar vardır. Tədqiqatçılar yaradıcılıq potensialına nələrin təsir etdiyi haqqında ciddi araşdırmalar aparmışlar. Yaradıcılığa təsir edən faktorları "Şəxsi faktorlar", "Affektiv faktorlar", "Genetik faktorlar", "Mühit faktorları", "Təhsil faktorları" kimi bir neçə yerə ayırmışlar.

Şəxsi faktorlar; hər kəs kimi düşünməyə və həmışə tək bir doğru cavab olduğuna ilişib qalmaq yaradıcılığa əngəldir. Çox qatı olmaq, riyazi düşüncəyə, şəkli düşüncəyə bağlanmaq kimi yaradıcılığı əngəlləyən zehni şəkilləndirmə əngəlləri də var. Ya da daimi olaraq məntiqi düşünmək kimi düşüncə tərzində sorğulamaq davranışı dayanmağa başlayır. Müasir dövrdə gənclərin, uşaqların fikirləşməsinə demək olar ki, şərait yaratmırıq, onlar fikirləşmək istəmirlər. Təhsildə yaradıcılığın inkişaf etməsi üçün ən vacib olan təsirlərdən biri uşaqlara fikirləşməyi öyrətməkdir. Düzgün tənqidi, ətrafını müşahidə etmək qabiliyyətini uşaqlara öyrətmək lazımdır. Çünki bunun nəticəsində uşaqlar və eyni zamanda tələbələrdə problemlərini daha yaxşı həll edə bilərlər.

Affektiv faktorlar; dərsin məzmunuda problem ola bilər. Hər şeyi sadələşdirməyə bilərsiniz və ya dərsin məzmunu uşağa uyğun olmaya bilər. Yəni uşaqların ehtiyaclarına uyğun gəlməyə bilər (4, 34).

Mühit faktorları; xarici universitetlərdəki tələbələr universitetdə olarkən çox aktivitələrdə iştirak edirlər. Bizdə isə tələbələr universitetdə olduğu müddət ərzində yalnız fənn dərslərinə vaxtlarını ayıra bilirlər. Tələbələrin və ya şagirdlərində əylənərək öyrənə biləcəyi, tələbələrin öyrənərək istirahət edə biləcəyi fəaliyyətlər yaradılmır. Müəllim keçəcəyi mövzuları müəyyən vaxt ərzində bitirməsi lazımdır, əgər bu cür olmazsa müəllim üçün bu stress faktoruna çevrilir. Müəllim bu qədər vaxt ərzində fərqli fəaliyyətlərə zaman ayırmaq əvəzinə ona verilən proqramı bitirməyə çalışır. Müəllimlərə verilən proqramı nə qədər müddət ərzində tələbəyə çatdırılmasını müəllimin öz müstəqil fəaliyyətinə buraxmaq lazımdır. Çünki zamanın dar olmasıda yaradıcılığı öldürən faktorlardan biridir. Məsələn, məktəbdə müəllim uşaqlara bir tapşırıq verir və 10 dəqiqə vaxtınız var bu vaxt ərzində tapşırığı bitirmək lazımdır. Verilən tapşırığın müəyyən bir zamana bölünərək verilməsi yaradıcılığı öldürən faktorlardandır. Hətta məktəblərdə, təhsil müəssisələrində dərsin bitməsi ilə bağlı zil səsinin qaldırılarsa, tələbələrin yaradıcılığına təsir edəcək dərslər zamanı daha rahat və beynlərinin sakit olmasına şərait yarada bilərik. Təhsil idarəedicilərinin ənənəvi davranışları ilə məhsula deyil, şəklə əhəmiyyət vermələri təlim mühitindəki yaradıcılığın əngəllərindən biridir.

**Məqalənin aktuallığı.** Müasir dövrdə gənclərin yaradıcı potensialının üzə çıxmasında müəyyən bir əhəmiyyəti vardır.

**Məqalənin elmi yeniliyi.** İlk dəfə Azərbaycanda yaradıcı potensiala maneə olan faktorlar mövzusuna toxunulmuşdur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə gənclər, eyni zamanda müəllimlər tədris zamanı müəyyən psixoloji məqamlara diqqət etməsi üçün əhəmiyyət daşıyır.

## Ədəbiyyat

1. Ağayev Ə.Ə. Azərbaycan ictimai pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. Bakı: Elm, 2005, 288 s.
2. Ayşe Gül Özaşkın, Dr.Ahmet Bacanak. Eğitimde Yaratıcılık çalışmaları". Amasya Üniversitesi, 2016.
3. Ali Murat Sünbül. Yaratıcılığı geliştirmek: Eğitime yeni bakışlar. Konya: Eğitim Akademi Yayınları, 2008
4. Necla Öner. Yaratıcılık ve üstün zeka: Hacettepe Üniversitesi Sosyal ve İdrari Bilimler Fakültesi, 2006.
5. Onur Yanık. Yaratıcılıkİstanbul, 2007.

**Н.Н. Пашаева**

## Концепция творческого потенциала

### Резюме

Есть факторы, которые влияют на творчество. Исследователи провели серьезное исследование того, что влияет на творчество. Факторы, которые влияют на творчество, включают личные факторы, аффективные факторы, генетические факторы, факторы окружающей среды и образовательные факторы. разделены.

**H.N. Paşayeva**

## The concept of creative potential

### Summary

There are factors that affect creativity. Researchers have done serious research on what affects creativity. Factors that affect creativity include personal factors, affective factors, genetic factors, environmental factors, and educational factors, separated.

**Redaksiyaya daxil olub:** 01.07.2020